**Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 noyabr 2003-cü il
515-IIQ

Azərbaycan Respublikasının
2003-cü il 7 noyabr tarixli 515-IIQ qanunu ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının**

**ƏSASNAMƏSİ**

1. Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalı dövlət qulluqçularına aşağıdakılara görə verilir:

milli dövlət quruculuğu sahəsinə aid mühüm layihələrin hazırlanmasında və onların həyata keçirilməsində fəal iştiraka görə;

dövlət orqanlarında vicdanlı fəaliyyətə və xüsusi xidmətlərə görə.

2. "Dövlət qulluğunda fərqlənməyə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

Azərbaycan Respublikasının
2003-cü il 7 noyabr tarixli 515-IIQ qanunu ilə
TƏSDİQ EDİLMİŞDİR

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalının**

**TƏSVİRİ**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı bürüncdəndir, diametri 35 mm olan milli ornamentlərlə naxışlanmış lövhə şəklində tərtib edilmişdir. İkinci səviyyədə olan lövhənin mərkəzində Azərbaycan Respublikasının Dövlət Gerbi təsvir edilmişdir. Gerbin ətrafı boyunca paylanan şüaların üstündə "Dövlət qulluğunda fərqlənməyə görə" sözləri yazılmışdır. Bütün yazılar və təsvirlər qabarıqdır.

Medalın arxa tərəfi hamar səthlidir, ortasında medalın *seriyası və* nömrəsi həkk olunmuşdur.[1]

Medal paltara bərkidilmək üçün elementi olan *37 mm x 50 mm ölçüdə qırmızı çalarlı, mərkəzində açıq-qızılı milli ornament, kənarlarında 2 mm ölçülü açıq-qızılı və 1 mm ölçülü qara rəngli şaquli zolaqlar təsvir olunmuş düzbucaqlı* xara lenti halqa və ilgək vasitəsilə birləşdirilir. *Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçüdə, aşağı hissəsinə aypara və səkkizguşəli ulduz yerləşdirilmiş mərkəzindən kənarlarına doğru şüalar istiqamətlənmiş, eni kənarlarda 10 mm, mərkəzdə 7 mm olan bürünc rəngli təbəqə bərkidilir.*[2]

Medala paltara bərkildilmək üçün elementi olan, milli ornamentlə naxışlanan eyni xara lentdən hazırlanmış *37 mm x 10 mm* ölçülü qəlib əlavə olunur.[3]

**"DÖVLƏT QULLUĞUNDA FƏRQLƏNMƏYƏ GÖRƏ" medalı**



-
-
-

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 20 oktyabr 2006-cı il tarixli **172-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 934**)
2. 30 sentyabr 2013-cü il tarixli **736-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 28 noyabr 2013-cü il, 261; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1255)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 30 sentyabr 2013-cü il tarixli **736-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 28 noyabr 2013-cü il, 261 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1255**) ilə “Dövlət qulluğunda fərqlənməyə görə” medalının təsviri”ndə ikinci hissədə “**nömrəsi**” sözündən əvvəl “**seriyası və**” sözləri əlavə edilmişdir.

[2] 30 sentyabr 2013-cü il tarixli **736-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 28 noyabr 2013-cü il, 261 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1255**) ilə “Dövlət qulluğunda fərqlənməyə görə” medalının təsviri”ndə “**27 mm x 47,5 mm ölçüdə sarımtıl-çəhrayı çalarlı beşbucaqlı**” sözləri “**37 mm x 50 mm ölçüdə qırmızı çalarlı, mərkəzində açıq-qızılı milli ornament, kənarlarında 2 mm ölçülü açıq-qızılı və 1 mm ölçülü qara rəngli şaquli zolaqlar təsvir olunmuş düzbucaqlı** ” sözləri ilə əvəz edilmişdir və yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[3] 20 oktyabr 2006-cı il tarixli **172-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 934**) ilə Birinci abzasın birinci cümləsinə “**bürüncdəndir**,” sözündən sonra “**diametri 35 mm olan**” sözləri əlavə edilmişdir və ikinci cümləsində “**Diametri 35 mm olan**” sözləri “**İkinci səviyyədə**” sözləri ilə əvəz edilmişdir və Üçüncü abzasda “**27 mm x 43 mm**” sözləri “**27 mm x 47,5 mm**” sözləri ilə əvəz edilmişdir.

30 sentyabr 2013-cü il tarixli **736-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 28 noyabr 2013-cü il, 261 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1255**) ilə “Dövlət qulluğunda fərqlənməyə görə” medalının təsviri”ndə dördüncü hissədə “**27 mm x 9 mm**” sözləri “**37 mm x 10 mm**” sözləri ilə əvəz edilmişdir.

-
30 sentyabr 2013-cü il tarixli **736-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 28 noyabr 2013-cü il, 261 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1255**) ilə “Dövlət qulluğunda fərqlənməyə görə” medalının təsviri”ndə “Dövlət qulluğunda fərqlənməyə görə” medalının eskizi əlavə edilmişdir.